# AZƏRBAYCAN SİLAHLI QÜVVƏLƏRİNİN YARANMASINDA HEYDƏR ƏLİYEVİN İRSİ

**Nurulla Əliyev**
*Hərbi Elmi Tədqiqat İnstitutu Humanitar elmlər şöbəsinin professoru, Ehtiyatda olan 1-ci dərəcəli kapitan, tarix elmləri doktoru, professor*
*nurullaliyev@mail.ru*

**OF THE ARMED FORCES OF AZERBAIJAN
HEIDAR ALIYEV'S LEGACY IN ITS ESTABLISHMENT**

**Nurulla Aliyev**

**Summary**

**Summary:** In the article, it gives information about the role of Heydar Aliyev in the creation of Military Collage named after Camshid Nakhcivanski when he was the Central Committees first secretary in Azerbaijan Communist Party, the national leader’s role in 1970 was to attract young generation particularly the Azerbaijani youth to military institution of the Soviet republic. Heydar Aliyev’s role in providing national security and creation of Azerbaijan Armed Forces is analyzed in the article, including the main direction in the creation of many stages of military education, and formation of cadre officer readiness.

**Key words:** national interest, state development, foreign policy, international legal princips, security sistem, strategy, development and governing of Armed Force.

**AZƏRBAYCAN SİLAHLI QÜVVƏLƏRİNİN YARANMASINDA HEYDƏR ƏLİYEVİN İRSİ**

**Nurulla Əliyev**

**Xülasə**

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsində olaraq Cəmşid Naxçıvanski adına internat məktəbinin açılışında Heydər Əliyevin rolu, onun 1970-ci illərdə respublika gənclərinin, xüsusən azərbaycanlıların, SSSR-nin hərbi təhsil müəssisələrinə cəlb olunması barədə göstərilmişdir. Milli təhlükəsizliyinin təmin edilməsində və Azərbaycan Silahlı Qüvvələrinin quruçuluğunda Heydər Əliyevin fəaliyyəti məqalədə təhlil olunmuş, həmçinin çox pilləli hərbi təhsil sisteminin yaranmasının əsas istiqamətləri, zabit kadrların hazırlığı işinin təşkili verilmişdir.

**Açar sözlər**: milli maraqlar, dövlət quruculuğu, xarici siyasət, hüquqi aktlar, beynəlxalq hüquq prinsipləri, təhlükəsizlik sistemi, "ağıllı güc" strategiyası, geosiyasi mərkəz, Silahlı Qüvvələrinin idarəçilik və hərbi quruculuq.

**НАСЛЕДИЕ ГЕЙДАРА АЛИЕВА В СОЗДАНИИ ВООРУЖЕННЫХ СИЛ АЗЕРБАЙДЖАНА**

**Нурулла Алиев**

**Аннотация**

В статье показана роль Гейдара Алиева на посту первого секретаря ЦК КП Азербайджана в открытии школы-интернат им. Д.Д. Нахичеванского, которая стала в 1970-х годах настоящим прорывом в деле по привлечению молодежи республики, особенно азербайджанцев, в военные учебные заведения СССР. В работе проведён анализ деятельности Гейдара Алиева на посту Президента по обеспечению национальной безопасности и строительства Вооруженных Сил Азербайджанской Республики, в том числе изложены основные направления по созданию многоступенчатой системы военного образования, организации подготовки и обучения офицерских кадров.

**Ключевые слова:** национальные интересы, государственное строительство, внешняя политика, международные правовые принципы, система безопасности, стратегия, военное строительство и управление Вооруженными Силами.

**Giriş**. Hər bir ölkə üçün səciyyəvi olan milli maraqların qorumasında dövlətin təhlükəsizlik sistemin yaranması, o cümlədən ordu quruculuğunun formalaşdırılması və möhkəmlənməsinin aktuallıq kəsb edir. Etibarlı təhlükəsizlik sistemi olmayan ölkədə iqtisadi və demokratik inkişaf barədə danışmaq çox mürəkkəb bir prosesdir. Bu proses, xüsusi ilə, geostrateji nəqliyyat yolu üstündə yerləşən, Şərqlə Qərb arasında bir körpü rolunu oynayan, həmçinin, qlobal enerji layihələrinin baş qarantı olan Azərbaycan üçün daha çox aktualdır. Bu aktuallıq, ilk növbədə, II Qarabağ müharibəsi nəticəsində regionda yaranan yeni reallıqların gerçəkləşməsi, dövlətlərinin ölkəmizə marağını daha da artırması və Azərbaycan vətəndaşlarının gələcək həyat standartlarının yüksəlməsi ilə şərtlənir.

Strateji baxımdan, mühüm olan bu konsepsiyanın yaradılması, heç də, təsadüfü deyil: o ölkəmizin iqtisadi imkanlarının inkişafı, beynəlxalq arenada nüfuzunun yüksəlməsi, bölgə, proseslərinə təsiretmə səviyyəsinin artması ilə bağlıdır. Azərbaycanın milli təhlükəsizlik konsepsiyasından irəli gələn əsas amil – siyasi prinsiplər, başqa sözlə desək, ölkəmizin müstəqilliyinin qorunub saxlanması, Respublikamızın ərazi bütövlüyünün təmin edilməsi, Konsepsiya quruçuluğunun təminatı, milli maraqlarımızın daxili və xarici təhlükələrdən müdafiəsi daim gündəmdə olmalıdır [1, s.16–17].

Müasir dünyada müstəqil dövlət quruculuğu prosesində onun təhlükəsiziyinin təmin edilməsi böyük aktuallıq kəsb edir. Ulu öndər Heydər Əliyevin bu sahədə yaradılan güclü dövlət konsepsiyası bu baxımdan çox böyük əhəmiyyəti vardır.

Heydər Əliyevin həyat yolunun möhtəşəm salnaməsini vərəqləyərkən göz önündə Azərbaycan tarixinin çətin və şərəfli bir dövrünün dolğun mənzərəsi canlanır. Xalqımızın yetişdirdiyi bu dahi şəxsiyyətin bütün fəaliyyətinin Azərbaycanın inkişaf yolu ilə sıx vəhdət təşkil etdiyini bir daha aydın şəkildə görürük. Heydər Əliyevin Azərbaycanın gələcək müstəqil milli inkişafı ilə bağlı siyasi dünyagörüşü və konseptual yanaşması ilk dəfə hələ SSRİ-nin mövcud olduğu dövrdə də səsləndirdiyi fikirlərdə öz əksini tapmışdır [2].

İlk növbədə qeyd etmək lazımdır ki, Heydər Əliyevin Azərbaycanın Dövlət Təhlükəsizliyi Komitəsinə rəhbərlik etdiyi dövrdə əsas vəzifəsi mövcud quruluşu qorumaq, totalitar sovet rejiminin ideologiyasına zidd düşüncə tərzinin yayılmasının qarşısını almaq olan bu qurumun işində müsbət meylilər özünü göstərməyə başladı. Əvvəla, qorxulu cəza aparatı kimi ad çıxarmış təhlükəsizlik orqanlarının cəmiyyət həyatına lüzumsuz müdaxilələrinin, azad fikirli ziyalıların təqib olunmasının qarşısı alındı. İkincisi, milli kadrların bu orqana işə götürülməsinə, onların vəzifədə irəli çəkilməsinə şərait yaradıldı. Ona görə də uzun müddət azərbaycanlıların azlıq təşkil etdiyi bu mühüm təşkilat 1967-1987-ci illərdə milli bir təhlükəsizlik strukturuna çevrildi [2].

O, 1969-cu il iyulun 14-də Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrü başlanmışdır. Heydər Əliyev ilk günlərdən respublikada xalq təsərrüfatına və mədəni quruculuğa rəhbərliyin əsaslı surətdə yaxşılaşdırılması, dövlət və əmək intizamının möhkəmləndirilməsi, kadrların məsuliyyətinin artırılması və korrupsiyaya qarşı mübarizənin yeni xəttini müəyyən etmişdir. Onun bilavasitə rəhbərliyi ilə Azərbaycanın iqtisadi inkişaf konsepsiyası hazırlanmış, ənənəvi təsərrüfat sahələrinin səmərəliliyi bərpa edilmiş, yeni istehsal sahələrinin əsası qoyulmuşdu. O dövrdə yaradılmış iqtisadi potensial müstəqilliyin ilk illərində Azərbaycan iqtisadiyyatının yenidən qurulması üçün baza rolunu oynadı. Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi ilk dövrdə (1969–1982-ci illər) elm, təhsil və mədəniyyətin inkişafı, xalqın tarixi yaddaşının özünə qaytarılması istiqamətində görülən işlər milli ruhun oyanmasına, azərbaycançılıq məfkurəsinin zənginləşməsinə güclü təsir göstərmiş və gələcəkdə müstəqil dövlətçiliyin bərpası üçün əsaslı zəmin hazırlamışdır.

Heydər Əliyevin təşəbbüsü və iştirakı ilə Bakıda və keçmiş SSRİ-nin paytaxtı Moskvada Azərbaycanın tanınmış ədəbiyyat, incəsənət və elm xadimlərinin yubileyləri keçirilmiş, onların fəaliyyəti yüksək dövlət mükafatları və fəxri adlarla qiymətləndirilmiş, abidələri ucaldılmışdı. Heydər Əliyev azərbaycanlı hərbçi kadrların yetişdirilməsinə, respublikada hərbi təhsilin inkişafına xüsusi diqqət ayırırdı. O dövrdə hazırlanmış yüksək ixtisaslı kadrlar sonralar müstəqil Azərbaycan dövlətinin qurulması, möhkəmləndirilməsi və təhlükəsizliyinə öz töhfələrini vermişlər [3, s.172–176].

Ümummilli lider Heydər Əliyevin 1969-cu ildə birinci dəfə hakimiyyətə gəlişindən sonra ölkəmizdə milli hərbi kadrların hazırlanması prosesi sistemli xarakter almışdır. Onun cəsarətli addımları

sayəsində 1971-ci ildə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Məktəb fəaliyyətə başlamışdır. Azərbaycanda milli hərbi kadr hazırlığı üçün baza rolunu oynayan belə bir məktəbin açılması o dövrdə heç də asan məsələ deyildi. Heydər Əliyev azərbaycanlı gənclərin Bakıda yerləşmiş Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə, eləcə də SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul edilməsinə də nail olmuşdu [3, s.176–178].

**Heydər Əliyev ordu quruculuğunun təminatçısı kimi**

Hər hansı bir ölkənin dünyada müstəqil bir subyekt kimi mövcudluğu böyük ölçüdə onun öz ərazi bütövlüyünün və maraqlarını mümkün təhlükələrdən qoruya bilməsindən, o cümlədən müharibələrə hazır olmasından asılıdır [4].

Hesab edirik ki, kifayət qədər hərbi gücə malik olmayan dövlətlər siyasi və iqtisadi müstəqilliyini, ərazi bütövlüyünü təmin edə bilmədiyi kimi, beynəlxalq aləmdə güclü ölkə statusuna da iddia edə bilməz. Günümüzün hərbi – siyasi reallıqları ölkənin milli təhlükəsizliyinin təmin edilməsi üçün silahlı qüvvələrinin hər an ola biləcək müharibələrə hazır olmasını tələb edir. Müharibələr müasir dünyada arzuolunmaz olsa da, hələm də beynəlxalq sistemdə dövlətlərarası münasibətlərdə meydana gələn qarşıdurmaların həll edilməsində vacib rol oynayır.

Bu səbəbdən “hərbi güc” bir çox dövlətlərin, o cümlədən Azərbaycan Respublikasının milli təhlükəsizlik sistemində əsas tərkib hisslərindən biridir. Hərbi gücün əsas komponentlərindən olan hərbi quruculuq, o cümlədən hərbi təhsil ölkəmizin təhlükəsizliyinin və müdafiəsinin təmin edilməsində mühüm rol oynayır. Bu baxımdan, müasir dövrdə hərbi quruculuq və hərbi təhsilin ölkənin milli təhlükəsizliyinin təmin edilməsində artan rolu və yerini nəzərə alaraq, məqalədə baxılan mövzunun aktual olduğunu və xüsusi əhəmiyyət kəsb etdiyini söyləmək olar.

Qeyd edildiyi kimi “hərbi güc” dövlətin xarici siyasətində, onun aparıcı qüvvə kimi payını və beynəlxalq mövqeyini müəyyən edən çox mühüm amildir. Ən əhəmiyyətsiz hərbi qüvvənin mövcudluğu mümkün müttəfiq və rəqiblərin siyasi qruplaşmasında çox mühüm rol oynaya bilər. Əsasən, hərbi qüvvə o yerdə yaradılmalıdır ki, beynəlxalq münaqişələrdə həlledici əhəmiyyət kəsb edə bilsin, onun ictimai-siyasi rolu bütün siyasi konyunkturlarda rəqib tərəf üzərində üstünlüyünü təmin etsin.

Təsadüfi deyil ki, XX əsrdə istər Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) dövründə, istərsə də müasir Azərbaycan Respublikasında “hərbi güc” anlayışının daha da inkişaf etdirilməsi üçün planlar hazırlanır və həyata keçirilir. Bu baxımdan hərbi quruculuq milli Silahlı Qüvvələrin ən optimal kəmiyyət və keyfiyyət parametrləri hesab edilir.

1991-ci ildə Azərbaycanın tam müstəqillik əldə etməsi xalqın çoxəsrlik tarixində epoxal hadisə oldu. 1990-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana təcavüzü nəticəsində yaranmış ağır hərbi-siyasi vəziyyətlə əlaqədar dövlət hakimiyyəti və dövlət quruculuğu məsələsində əsas istiqamətlərdən biri, ölkənin müstəqilliyinin və ərazi bütövlüyünün etibarlı müdafiəsini təmin edə bilən milli Silahlı Qüvvələrin yaradılması idi [5].

Azərbaycanda hərbi quruculuq işlərinə 1991-ci ilin sonunda SSRİ-nin dağılması nəticəsində ölkə tam müstəqillik əldə etdikdən dərhal sonra, bütün Xəzər regionunda geosiyasi və hərbi-strateji vəziyyətin köklü şəkildə dəyişdiyi bir şəraitdə başlandı [6, s. 258].

Bu qanuna görə Azərbaycan Respublikasının Silahlı Qüvvələri üç quruluşdan ibarət olmalı idi: Quru Qoşunları, Hava Hücumundan Müdafiə və Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri. Silahlı Qüvvələrin təşkilati strukturuna birliklər, birləşmələr, hərbi hissələr, hərbi təşkilatlar və hərbi təhsil müəssisələri daxil idi [7, s.16; 8, s.9].

1993-cü ilin ikinci yarısında respublikada hərbi quruculuq sahəsində köklü dəyişikliklər Azərbaycan Respublikasının Ali Baş Komandanı – Prezident Heydər Əliyevin Silahlı Qüvvələrə göstərdiyi diqqəti və qayğısı nəticəsində baş verdi.

Respublika Prezidenti Heydər Əliyev nəinki orduda hərbi vətənpərvərlik ruhunun artırılması işinə rəhbərlik edir, həm də özü bilavasitə bu işdə yüksək fəallıq göstərirdi. Ali Baş Komandan Heydər Əliyevin bu istiqamətdə apardığı işlərin nəticəsində ordu daxilində dərinləşməkdə olan böhranın qarşısı alındı və bu sahədə keyfiyyət dəyişikliyi yarandı.

Heydər Əliyevin dövlətin təhlükəsizliyinin təmin olmasında gördüyü işlərin təhlili göstərir ki, ümummilli lider Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, mədəni həyatında, xarici əlaqələrində və bununla bərabər ordunun yeni standartlara uyğun formalaşmasında dönüş yarandı, beynəlxalq norma və prinsiplərə uyğun olaraq müstəqil dövlət quruculuğu prosesi başlandı [9, s.183].

Bəzi daxili və xarici qüvvələr tərəfindən hazırlanmış 1994-cü il oktyabr və 1995-ci il mart dövlət çevrilişi planlarının, habelə şəxsən Heydər Əliyevə sui-qəsd və terror cəhdlərinin qarşısı qətiyyətlə alındı, silahlı yolla hakimiyyətə gəlmək iddialarına son qoyuldu, Azərbaycan dövlətçiliyinin iflası prosesi dayandırıldı, ölkədə möhkəm ictimai-siyasi sabitlik bərqərar edildi [10].

1994-cü il yanvarın əvvəllərindən etibarən həyata keçirilən Horadiz əməliyyatı nəticəsində erməni silahlı birləşmələrinin Beyləqan istiqamətində hücumunun qarşısı alındı və Azərbaycan Ordusu əks-hücuma keçərək 21 min hektar ərazini – Füzuli rayonunun 20 Arazboyu kəndini, Horadiz qəsəbəsini və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndini işğaldan azad etdi. Bütün bunlar Ermənistanda yaranan “permanent qələbə” eyforiyasına son qoydu. Gözü qorxan düşmən atəşkəs müqaviləsini imzaladı. Beləliklə, erməni silahlı qüvvələrinin işğalı genişləndirmək planlarının qarşısı alındı, Ermənistan 1994-cü ilin mayında cəbhə xəttində atəşkəs elan edilməsinə və danışıqlar masasına qayıtmağa məcbur oldu. “Bişkek Protokolu”nin qüvvəyə minməsi ilə Azərbaycan strateji məqsədlərini reallaşdırmaq imkanı qazandı. Ölkə boyunca genişmiqyaslı quruculuq işlərinə başlanıldı.

Heydər Əliyevin fəal diplomatik səyləri nəticəsində dünyanın böyük dövlətlərinin və aparıcı beynəlxalq təşkilatlarının Azərbaycana, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibəti əsaslı surətdə dəyişdi. BMT Təhlükəsizlik Şurasında, ATƏT-in Budapeşt (1994) və Lissabon (1996) sammitlərində, İƏT-in üzv dövlət başçılarının zirvə toplantılarında Ermənistanın işğalı pisləndi və Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq normaları, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə dair sənədlər qəbul edildi [2].

Bu gün beynəlxalq aləmdə baş verən mürəkkəb və narahatlıq doğuran prosesləri nəzərdən keçirərkən çıxardığımız ən mühüm nəticə budur ki, müstəqilliyini qazanmış dövlətin ən böyük sərvəti onun sabitliyidir və təhlükəsizliyinin təminatıdır. Və əgər bu sabitlik və təhlükəsizlik eyni zamanda ölkənin dinamik inkişafını da təmin edə bilirsə, onda onu dövlətin öz gələcəyini təmin etmək üçün əldə etdiyi böyük tarixi nailiyyəti hesab etmək lazımdır. Deməli, milli dövlət üçün sistemini qorumaq və inkişaf etdirmək, ilk növbədə siyasi məsələdir. Heydər Əliyevin dövlətin inkişaf modeli, o cümlədən onun suverenlik prinsipi müasir tələblərə cavab verən dövlətçilik kursunun seçilməsini şərtləndirir [11, s.4–5].

**Heydər Əliyev Azərbaycanda ali hərbi təhsili sisteminin yaradıcısı kimi**

XXI əsrdə müasir ordular təhlükəsizlik şərtlərini müəyyən edən bir sıra məsələlərin (siyasi, hərbi, iqtisadi və s.) həlli üçün liderlərin hazırlanmasına xüsusi diqqət yetirilir. Bu anlayış bütün səviyyələrdə zabit kadrların hazırlanması üçün effektiv peşəkar hərbi təhsil sistemində effektiv proqramların, təlim-tərbiyyə metodların tətbiqini zəruri edir. Bu proqram və təlimin əsas məqsədi qeyri-müəyyən və mürəkkəb təhlükəsizlik mühitində fəaliyyət göstərə bilməsi üçün zabitin analitik, mücərrəd və innovativ düşünmə qabiliyyətini inkişaf etdirməkdir. Bütün aparıcı orduların (ABŞ, Böyük Britaniya, Çin, Rusiya, Türkiyə, Almaniya, Hindistan və digər) hərbi qulluqçuları arasında analitik düşünmə bacarıqlarının inkişafı məsələsi xüsusi aktuallıq kəsb edir.

Peşəkar hərbi təhsil geniş fəaliyyət sahələrini əhatə edir. Buraya çoxlu sayda təlimlər, təkmilləşdirmə kursları və hərbi qulluqçuların karyeralarının müxtəlif mərhələlərində inkişafını təmin etmək və onları aşağıda qeyd olunan vəzifələrə hazırlamaq üçün nəzərdə tutulmuş digər tədbirlər daxildir [12].

Bəzi ordularda “peşəkar zabit” dedikdə, onun taktiki vərdişi və bacarığı nəzərdə tutulur. Hesab edilir ki, yüksəkrütbəli zabitlərin əsas keyfiyyəti, ilk növbədə onların fiziki və ya atəş hazırlığı olmalıdır. Müxtəlif vəziyyətlərdə qərar qəbul etmək bacarığı isə ikincidərəcəli məsələlərdəndir. Ali hərbi təhsil müəssisələrində zabit kadrlarının hazırlanması prosesində təcrübələrin təhlili göstərir ki,

bu cür yanaşma zabit korpusunun təhliletmə və düşünmə vərdişlərinin formalaşmasına mənfi təsir edir (kiçik bir hissəsi istisna olmaqla).

Müasir dövrdə zabitin peşəkarlığı təkcə onun vəzifə borcunun mahiyyətini və xüsusiyyətlərini mükəmməl bilməsi ilə ölçülmür. Belə ki, yüksək taktiki, atəş və fiziki hazırlıq zabitin peşəkar hərbçi kimi yetişməsində mühüm rol oynasa da, yetərli deyil. Çünki müasir zabit dinamik, qarışıq və mürəkkəb şəraitdə döyüş tapşırıqlarını yerinə yetirməli olur.

Nəzərə almaq lazımdır ki, peşəkar hərbi təhsil strategiyası təlim, peşə təhsili və təcrübə arasında tarazlığı nəzərdə tutur. Bu üç sahə bir-biri ilə sıx bağlıdır və bir-birini tamamlayanda düşmənə qalib gəlmək qabiliyyətini inkişaf etdirir [13].

Peşəkar hərbi təhsilin qarşıya qoyduğu məqsəd hərbi qulluqçular arasında yaradıcı təfəkkürün təlimi və tərbiyəsi ilə yanaşı, onların riskə getmək qabiliyyətini, qərar qəbul edərkən analitik düşüncəni daha fəal formalaşdırmaqdan ibarətdir. Gələcək müharibələrin taleyi qeyri-müəyyənliyə uyğunlaşa bilən, doktrinadan bir qayda kimi deyil, bələdçi kimi istifadə edən, problemlərə həll yolları təklif etməyi bacaran, silah və ya texnologiyadan yeni üsullarla istifadə edən və qeyri-adi yanaşmalarla, həmçinin vəzifələrini tez və səmərəli yerinə yetirmək üçün üsullarla çıxış edən liderlərdən asılıdır. Bunu ancaq, mövcud vəziyyətin təhlilinə analitik yanaşanlar edə bilər.

Vəziyyəti təhlil edə və problemlərdən çıxış yolu tapa bilməyən, dərin biliyə malik olmayan lider nəinki öz xidməti fəaliyyətində uğursuzluğa uğraya, hətta həyatını itirə bilər. David Petraeusun dediyi kimi, *"Əsgərin daşıya biləcəyi ən vacib silah onun silahı deyil, ağlıdır"* [14, s. 70]. Peşəkar hərbi təhsil zehni itiləşdirir və döyüş meydanında uğur qazandırır.

Müstəqilliyin əldə edən Azərbaycanda ordu quruculuğunun əsasını peşəkar hərbi təhsil təşkil edirdi. Azərbaycan Silahlı Qüvvələrinin qarşısında duran yeni vəzifələri nəzərə alaraq, respublikada bütün sistemin, xüsusən də Ali Hərbi Məktəblərin strukturunun yenidən qurulmasını gücləndirmək üçün Müdafiə Nazirliyinin nəzdində hərbi təhsil idarəsinin yaradılmasına mütləq ehtiyac var idi. Bu vəzifələr respublikada bütün hərbi hazırlıq sistemini əhatə etməli idi. Bu da öz növbəsində Silahlı Qüvvələr üçün lazımi ixtisaslar üzrə zabit kadrlarının peşəkar hazırlığının təmin olunması ilə bağlı müasir tələblərin yüksəldilməsini, ölkənin müdafiəsini təmin etmək üçün qarşıya qoyulan məsul vəzifələrin artmasını, respublikada bütün hərbi təlim və təhsil sistemində köklü islahatların aparılmasını tələb edirdi.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə aparılan islahatlar nəticəsində respublikada peşəkar hərbi təhsilin həyata keçirilməsi sistemi formalaşdırıldı. 1997-ci ildən başlayaraq ahəngdar çoxpilləli hərbi təhsil sistemi yaradıldı və bu günə qədər fəaliyyətini uğurla davam etdirir. Təhsilin ümumi və peşə olaraq bölünməsi ilə bağlı keçmiş təcrübənin, eləcə də nəzəri və praktiki hazırlığın müddətlərinin qorunub saxlanılması, xüsusi fənlər üzrə saatların düzgün bölüşdürülməsi, təlim-tədris və təcrübə məşğələlərinin aparılması hərbi təhsil sahəsində köklü dəyişikliklərin həyata keçirilməsində əsas məsələlər olmuşdur.

Azərbaycan Respublikası Silahlı Qüvvələri üçün kadr hazırlığını daha da təkmilləşdirilməsi məqsədilə Prezident Heydər Əliyevin 20 avqust 2001-ci il tarixli sərəncamı ilə Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Aviasiya Məktəbinin yaradılması respublikada hərbi təhsil sistemində yeni mərhələ başlatmış və ali hərbi məktəblərinin statusunu xeyli artırmışdı [15, s. 329].

Ehtiyatda olan zabit kadrlarının və müasir tələblərə cavab verən ixtisaslı hərbi həkimlərin hazırlanması məqsədilə Müdafiə Nazirliyi tərəfindən Azərbaycan Tibb Universitetində ehtiyatda olan zabitlər üçün ixtisasartırma kursları və hərbi tibb fakültəsi yaradıldı. Hərbi təhsil ocaqlarına Azərbaycanda mövcud olan hərbi liseylərlə yanaşı, zabit və çavuş kadrlarının hazırlanması, əsgərlərin qısa müddətdə hərbi texnikanın sirlərinə yiyələnmək və bu bilikləri gündəlik hərbi xidmətdə tətbiq etmək üçün yaradılmış Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzi də daxil idi.

Azərbaycanda hərbi təhsil sistemində dörd əsas istiqamət üzrə islahatlara başlanıldı: 1) yeni, daha səmərəli idarəetmə strukturunun yaradılması; 2) yeni tədris planlarının hazırlanması; 3) tədris və maddi-texniki bazanın təkmilləşdirilməsi; 4) komandanlıq və tədris heyətinin yüksək peşəkar heyətlə komplektləşdirilməsi.

Hərbi təhsilin effektiv inteqrasiya sistemini yaratmaq üçün Azərbaycan Ordusunda dördpilləli zabit hazırlığı sistemi təmin edildi. Birinci mərhələyə kursantların 4 illik bakalavr hazırlığı, ikinci mərhələyə yeni məzun olan leytenantların 10 aya qədər davam edən ixtisasartırma kurslarında müxtəlif ixtisaslar üzrə hazırlığı, üçüncü mərhələyə zabitlərin 9 il hərbi hissələrdə xidmət etdikdən sonra ali təhsil səviyyəsini magistr pilləsində və əməliyyat-taktiki səviyyədə təhsil, dördüncü mərhələyə isə ali hərbi təhsil ən yüksək səviyyəsi olan adyunkturada təhsil daxildir. Azərbaycan Respublikası Silahlı Qüvvələri üçün ali hərbi təhsilli komandir və qərargah zabitlərinin, habelə hərbi alimlərin hazırlanması, onların ixtisaslarının artırılması, hərbi sahədə elmi tədqiqatların aparılması, dövlət orqanlarında çalışan rəhbər vəzifəli şəxslərin, respublikanın hərbi müdafiəsi ilə bağlı strateji, hərbi-iqtisadi və hərbi-siyasi məsələlərin həlli üçün 1999-cu ildə Silahlı Qüvvələrin Hərbi Akademiyası yaradıldı. Sonralar Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasında yaradılmış əməliyyat-taktiki, əməliyyat-strateji, strateji tədqiqatlar və dövlət müdafiəsinin idarə edilməsi kurslarında, həmçinin magistratura və adyunktura səviyyəsində ali təhsilin təşkili yüksək səviyyədə təsis edildi [15, s. 405-409].

Qeyd edək ki, Azərbaycanda hərbi təhsilin keyfiyyətcə yeni inkişaf səviyyəsinə keçməsi, Ulu Öndərin ordu quruculuğu sahəsində siyasətinin uğurla davam etdirilməsi, xüsusilə bütün hərbi təhsil sisteminin təkmilləşdirilməsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə daha da geniş vüsət almışdır. Silahlı Qüvvələrin formalaşmasının prioritetləri ordunun müasir silah və hərbi texnika ilə təchiz edilməsi üzrə qəbul edilmiş strategiyanın həyata keçirilməsi, eləcə də Azərbaycanın hərbi təhsil müəssisələrində bütün maddi-texniki bazanın yenilənməsi olmuşdur [15, s. 483].

2009-cu ildə qəbul edilmiş "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun, o cümlədən "Xüsusi təhsil müəssisələrinin yaradılması Qaydaları"nın və Azərbaycan Respublikası Prezidentinin Fərmanının tətbiqi ilə bağlı bir sıra hüquqi sənədlər qüvvəyə minir. 24 may 2010-cu il tarixli "Xüsusi təhsil müəssisələrinin Siyahısı"nın təsdiq edilməsi ilə hərbi təhsil sahəsində yeni məqsəd və vəzifələr yanaşı, ümumən təhsil sahəsində əsas dövlət prinsipləri müəyyən olundu. Azərbaycan Respublikası Prezidentinin imzaladığı Sərəncama əsasən Azərbaycan Müdafiə Nazirliyinin balansında olan təhsil müəssisələrinə xüsusi status verildi [16].

Hazırda Azərbaycanda müasir maddi-tədris bazasına malik, innovativ texnologiyalarla təchiz edilmiş və müasir tədris metodları əsasında fəaliyyət göstərən hərbi təhsil sistemi mövcuddur [17]. Eyni zamanda, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi təhsil sistemində tarixi araşdırmalar və təhlillər əsasında mülki və hərbi fənlərin unifikasiyasını nəzərdə tutan islahatlarla tədris proqramlarının daha da zənginləşdirilməsi həyata keçirilmişdir. Zabitlərin peşəkar hazırlığında əsas diqqət keçmiş döyüş təcrübələri əsasında yeni müharibə şəraitinə uyğun hazırlığa yönəldilmişdir.

Vətən müharibəsindən sonra Silahlı Qüvvələrdə aparılan struktur islahatları çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin göstərişi ilə müəyyən edilən məqsəd və vəzifələr uğurla həyata keçirilir [17]. Belə ki, xüsusi təyinatlı təhsil müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 5 mart 2022-ci il tarixli 1626 saylı Fərmanına əsasən Azərbaycan Respublikasının Milli Müdafiə Universiteti yaradılmışdır. Onun strukturu, vəzifələri və əsasnaməsi təsdiq edilmişdir [18]. Qəbul edilmiş sənədə əsasən Milli Müdafiə Universitetin tərkibində Hərbi Elmi Tədqiqat İnstitutu, Hərbi İdarəetmə İnstitutu və Heydər Əliyev adına Hərbi İnstitut yaradılmış, həmçinin universitetin tərkibinə Azərbaycan Ordusunun Təlim-Tədris Mərkəzi, Azərbaycan Ordusunun Hərbi Liseyi, C.Naxçıvanski adına və Heydər Əliyev adına Hərbi Liseylər daxil edilmişdir [19].

1993-cü ilin ortalarında milli Silahlı Qüvvələrin planlı və intensiv formalaşdırılması, bir neçə ildən sonra yeni hərbi təhsil sisteminin yaradılması öz səmərəli nəticələrini verdi [20]. Həyata keçirilən müvafiq tədbirlər sayəsində Azərbaycan Respublikasında hərbi təhsil sisteminin yenidən qurulmasında nəzərəçarpacaq dönüş yarandı, onun gələcək islahatı və inkişafı üçün möhkəm zəmin hazırlandı. Hərbi təlim və təhsil prosesinə müasir döyüş üsullarının tətbiqi zabit kadrlarının daha yaxşı hazırlanmasına və qoşunların keyfiyyətcə yeni döyüş şəraitinə uyğunlaşdırılmasına imkan verdi.

Təsadüfi deyil ki, 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində qazanılan Böyük Qələbə təkcə ölkəmizdə deyil, həm də dünya hərb tarixində mühüm iz buraxmışdır [21; 22, s.792]. Qoşunların tətbiq etdikləri yeni döyüş fəaliyyətləri və İkinci Qarabağ müharibəsində istifadə olunan silahların keyfiyyəti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin formalaşdırılması və hərbi sistemin təkmilləşdirilməsi sahəsində prioritetlərin müəyyən edilməsi ölkənin hərbi-siyasi rəhbərliyinin düzgün strategiya seçdiyini göstərdi.

**Nəticə:**Beləliklə, Azərbaycan xalqı Heydər Əliyevin xidmətlərini daim minnətdarlıqla xatırlayır. Bu dövrdə ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş Azərbaycan Ordusu qısa müddətdə böyük inkişaf yolu keçmişdir [15, s.431-436]. Dövlətimiz əcdadlarımızın hərbi ənənələrini yaşadan, xalqın sevgisi və dövlətin layiqli davamçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizin müdafiə qüdrətinin artırılmasında, onun təhlükəsizliyinin təmin olması sahəsində böyük nailiyyətlər əldə etmişdir. Bu uğur yüksək səviyyəli ordu quruculuğu və Vətən müharibəsində qazanılan şanlı Qələbəmiz ilə bağlıdır. Bu gün ordu quruculuğu baxımından Azərbaycan dünyanın güclü ölkələrin sirasına daxildir [23].

## İstifadə olunmuş mənbə və ədəbiyyat


1. Əliyev N.A. Azərbaycanın Ali Hərbi Dənizçilik Məktəbi Donanmanın xidmətində – 70. Bakı, 2009, 432 s.
2. “Azərbaycan” qəzeti, 2001, 26 iyun
3. Darabadi, P.G. Qafqaz-Xəzər regionunda geosiyasət və Azərbaycan / P.G.Darabadi, N.A.Əliyev. – Bakı: AFpoliqraf, – 2017. – 288 s. (rus dilində)
4. Azərbaycanda xarici ölkələr üçün hərbi dəniz zabitlərinin hazırlanması tarixi. Azərbaycan Milli Elmlər Akademiyasının Materialları. Tarix, fəlsəfə və hüquq seriyası, №3, 2001, s.14-20 (rus dilində)
5. Süleymanov, M.S. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin təşkili problemləri // –Bakı: Hərbi bilik, –1994. №1, – s.7-12
6. Güclü dövlət quruculuğunun banisi Heydər Əliyev. 12 dekabr 2014-ci il. http://newtimes.az/ az/geopolitics/3227/- Newtimes.az
7. Ниязов Н.С. Основные векторы политики военной безопасности Азербайджанской Республики в 1994-2010 годы. Санкт-Петербург, 2010, 208с.
8. Vəliyeva, Z. Tədris prosesinin keyfiyyət təminatı: Şərti yanaşma: [Elektron resurs] / – 2018. URL: http://palitranews.az/news.php?id=94460
9. Piriyev, H., Tahirov, R., İskəndərov, X. Peşəkar hərbi təhsildə tənqidi təfəkkürün rolu və yeri // – Bakı: Milli təhlükəsizlik və hərbi elmlər, – 2020. № 3(6), – s.7-14
10. Tahirov, R. Ali hərbi məktəblərin kursantlarında liderlik keyfiyyətlərinin formalaşdırılmasının mahiyyəti, məzmunu və tərbiyəvi əhəmiyyəti // – Bakı: Hərbi Nəşriyyat, – 2020. – 80 s.
11. Əliyev, N. Azərbaycanda hərbi təhsil (tarixi oçerklər) / N.Əliyev, A.Şahbazov, A.Həsənov. – Bakı: AFpoliqraf, – 2017. – 600 s.